*XALQIN SÖZÜ HAQQ SÖZÜDÜR*

# LERİK



*Azərbaycan dünyaya günəş kimi doğacaq.*
*Heydər ƏLİYEV*

№ 19-20 (6062-6063) ✹ 30 noyabr 2022-ci il ✹ Qəzet 1937-ci ildən çıxır ✹ Rayonun ictimai-siyasi qəzeti ✹ Qiyməti 40 qəpik




# ZƏFƏRİMİZ MÜBARƏK!

**Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi gərgin əməyinin, məqsədyönlü siyasətinin nəticəsində Azərbaycan ərazi bütövlüyünə qovuşdu, xalqımız dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanınıldı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi, Respublikanın bütövləşməsi, Azərbaycanın bütün sərhədləri boyun-ca bayrağımızın dalğalanması.**

Vətən müharibəsində qazanılmış Qələbə ordu quruculuğu siyasətinin və iqtisadi inkişafın nəticəsidir. Uzun illər ərzində Azərbaycan danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdı. Ordu quruculuğu hər zaman Prezident İlham Əliyevin dövlət siyasətinin prioritet istiqaməti olub. Bütün illər ərzində dövlətin büdcə xərclərinin əsasını məhz hərbi xərclər təşkil edib. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəlib, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edilib. Bir ölkədən asılı olmamaq üçün hərbi texnikabir çox mənbələrdən alınıb. Vətən müharibəsi göstərdi ki, Azərbaycanda silahlanma siyasəti düzgün aparılmışdır.

24 mart 1992-ci ildə təsis olunmuş ATƏM-in (indiki ATƏT) Minsk Qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışmış və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalmış, müharibəni qaçılmaz etmişdir. Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır. Lakin təcüvüzkar Ermənistan müharibənin başlanmasına rəvac vermiş, ərazilərimizi güclü atəşə məruz qoymuşdur.

Azərbaycan Respublikası Vətən müharibəsində güclü əks-həmlə hücumlarına başladı, işğala məğruz qalmış torpaqlarımız, rayonlarımız azad edildi. Azərbaycan Silahlı Qüvvələrinin fədakarlığı sayəsində 44 gün ərzində müharibə Qələbəmizlə, Zəfərlə bitdi. Azərbaycan Respublikasına, xalqımıza böyük şöhrət qazandırdı, beynəlxalq nüfüzunu artırdı.

Vətən müharibəsində əsl igidlik və qəhrəmanlıq göstərmiş şəhidlərə sonsuz ehtiram

Vətən müharibəsi Azərbaycan dövləti, milləti, ordusu peşəkar və qorxmaz əsgərlərimiz üçün əsl mətinlik məktəbi, böyük sınaq oldu. Azərbaycanın, eləcə də bir sıra nüfüzlu beynəlxalq təşkilatların səylərinə baxmayaraq Ermənistan təcavüzkar siyasətini davam etdirmiş, təmas xəttinin yaxınlıqda yerləşmiş yaşayış məntəqələrimizi mütəmadi olaraq atəşə tutmuş, təxribatlar törətmiş, mülki əhalini tələfata uğratmış, əsgər və zabitlərimiz vətən uğrunda şəhid olmuşlar.

2020-ci ilin 27 sentyabrında Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-həmlə hücum əməliyyatlarına başlandı. Düşmənin möhkəmləndirilmiş mühəndis-istehkamları, səngərləri, hərbi texnika və canlı qüvvəsi məhv edildi. 30 ilə yaxın düşmənin işğalına məğruz qalmış yaşayış məntəqələrimiz, torpaqlarımız əsarətdən azad olundu. Azərbaycanın ərazi bütövlüyü, surerenliyi uğrunda gərgin və qanlı döyüşlərdə vətən fədailəri şəhid oldu. Lerikin mərd və cəsur övladlarından Elnur Əsədullayev, Təbriz Talıbov, Murtuz Abbasov, Təhsin Cəfərov, Sadiq Rəhimov, Şahin Tahirli, Tural Əhədov, Vüqar Mövlanov, İdrət Abdullovun, Altay Mövlanov, Ramiq Tağıyevin, Zabil Azadlının, Natiq Hüseynovun, Talışan Sadıqovun, Əhəd Rzayevin, Balaş Fərziyevin, Cəlal Ağayevin, Tural Əhmədovun, Tarzən Həşimov, Ədülfəz Rəhmətovun şəhidliyinin 2-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilmiş, şəhidlərin xatirəsi yad edilmiş, məzarları ziyarət olunmuş, abidələrin, bulaq-komplekslərin önünə çiçək dəstələri düzülmüş, nitqlər söylənmiş, dualar oxunmuşdur.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov başda olmaqla rayonun vəzifəli şəxsləri, ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər bütün anım mərasimlərində iştirak etmişlər. Şəhidlərin hər biri bizə doğma və əzizidir, onlar Azərbaycanın bütövlüyü uğrunda vuruşaraq qəhrəmanlıq göstərmiş, canlarını belə əsirgəməmişlər. Hər bir şəhid valideyni, şəhid ailəsi, qazi, Vətən müharibəsinin əlili dövlətin qayğısı ilə əhatə olunduğu kimi, bizim də ehtiramımıza, hörmət və məhəbbətimizə layiqdir. Bundan sonra da baş tacımız olan şəhidlərimizin ruhu sonsuz ehtiramla, izzətlə xatırlanacaq, yad ediləcək, heç zaman unudulmaycaq.

**Lerik qəzeti**

# DÖVLƏT BAYRAĞI MİLLƏTİN VARLIĞINI İFADƏ EDİR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla hər il noyabrın 9-u ölkədə Dövlət bayrağı günü kimi qeyd edilir. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinə əsasən bu bayram ölkədə qeyri-iş günü olan bayramların siyahısına daxil edilib.**

Dövlət bayrağı gününün qeyd olunması Azərbaycan Xalq Cümhuriyyətinin ümhuriyyətinin tarixi ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, hökumətin iclasında qəbul edilib və iclasın keçirildiyi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olaraq təsdiq edilmişdir.



1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" Qanun qəbul edərək, onu yenidən Dövlət Bayrağı elan etmişdir. Sonralar Ümummilli Lider bu barədə deyirdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını bərpa etmişdir.

Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşməsinin başlıca amillərindən biridir. Bayraq milli identikliyin təzahür formalarından biridir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir.

Ulu Öndər Heydər Əliyev demişdir: "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir.", "Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında birləşməlidir".

# VƏTƏNDAŞLAR QƏBUL EDİLMİŞDİR



Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında RİH başçısı Əkbər Abbasov tərəfindən vətəndaşların qəbulu keçirilib. Qəbulda şəhid ailələri, qazilər və müharibə iştirakçıları növbədənkənar qəbul edilib. Rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilən vətəndaşların müraciətləri əsasən işlə təmin olunma, tikinti materialının verilməsi, torpaq məsələləri, elektrik təsərrüfatı və digər sosial məsələlərlə bağlı olub.

Qəbulda rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov vətəndaşlar tərəfindən səsləndirilən müraciətlərin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verib.

Ay ərzində hər həftənin 2-ci günü icra hakimiyyətinin inzibati binasında rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov tərəfindən vətəndaşların qəbulu keçirilib.

# ZƏFƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB




**Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, Milli Məclisin deputatı İqbal Məmmədov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailə üzvləri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Öncə tədbir iştirakçıları Lerik Rayon Mədəniyyət Mərkəzinin foyesində rayon məktəblilərinin Zəfər Gününə həsr etdikləri əl işlərindən ibarət rəsm sərgisinə baxıblar.

Sonra tədbir Rayon icra hakimiyyəti və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığıyla təşkil edilmiş bayram konserti ilə davam etdirilib.

Bayram konsertində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, respublikamızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi sükutla yad edilib. "Zəfər tarixi" adlı videoçarx nümayiş etdirilib.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov və Milli Məclisin deputatı İqbal Məmmədov 8 Noyabr - Zəfər Günü münasibəti ilə tədbir iştirakçılarını və rayon ictimaiyyətini təbrik ediblər.



Tədbirdəki çıxışlarda Vətən müharibəsində qazandığımız Şanlı Qələbənin təcəssümü olan Zəfər Gününün ikinci ildönümünü iftixar hissi ilə qeyd edildiyi, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən Vətən Müharibəsinin tariximizin ən parlaq səhifəsi, Azərbaycan xalqının qürur mənbəyi olduğu vurğulanıb. Azərbaycan xalqının öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməklə bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdiyini, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycan 30 ilə yaxın davam edən münaqişədə qalib tərəf olduğu, ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildiyi diqqətə çatdırılıb.

Tədbirdə incəsənət nümayəndələrinin ifasında təqdim olunan vətənpərvərlik mövzusundakı mahnılar, bədii qiraətçilərin söylədiyi Zəfər bayramına, Qələbəmizə və Şəhidlərə həsr olunmuş şeirlər maraqla qarşılanıb.

**ZƏFƏR bayramınız mübarək!**
**Yaşasın müstəqil Azərbaycan!**
**Yaşasın Qarabağ!**
**Yaşasın müzəffər Ali Baş Komandan İlham Əliyev!**
**Eşq olsun Azərbaycan ordusuna!**
**Eşq olsun Azərbaycan xalqına!**

# VƏTƏN MÜHARİBƏSİNDƏ ƏSL İGİDLİK VƏ QƏHRƏMANLIQ GÖSTƏRMİŞ ŞƏHİDLƏRƏ SONSUZ EHTİRAM

**Vətən müharibəsi Azərbaycan dövləti, milləti, ordusu peşəkar və qorxmaz əsgərlərimiz üçün əsl mətinlik məktəbi, böyük sınaq oldu. Azərbaycanın, eləcə də bir sıra nüfüzlu beynəlxalq təşkilatların səylərinə baxmayaraq Ermənistan təcavüzkar siyasətini davam etdirmiş, təmas xəttinin yaxınlıqda yerləşmiş yaşayış məntəqələrimizi mütəmadi olaraq atəşə tutmuş, təxribatlar törətmiş, mülki əhalini tələfata uğratmış, əsgər və zabitlərimiz vətən uğrunda şəhid olmuşlar.**

2020-ci ilin 27 sentyabrında Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə əkshəmlə hücum əməliyyatlarına başlandı. Düşmənin möhkəmləndirilmiş mühəndis-istehkamları, səngərləri, hərbi texnika və canlı qüvvəsi məhv edildi. 30 ilə yaxın düşmənin işğalına məğruz qalmış yaşayış məntəqələrimiz, torpaqlarımız əsarətdən azad olundu. Azərbaycanın ərazi bütövlüyü, surerenliyi uğrunda gərgin və qanlı döyüşlərdə vətən fədailəri şəhid oldu. Lerikin mərd və cəsur övladlarından Elnur Əsədullayev, Təbriz Talıbov, Murtuz Abbasov, Təhsin Cəfərov, Sadiq Rəhimov, Şahin Tahirli, Tural Əhədov, Vüqar Mövlanov, İdrət Abdullovun, Altay Mövlanov, Ramiq Tağıyevin, Zabil Azadlının, Natiq Hüseynovun, Talışan Sadıqovun,




Əhəd Rzayevin, Balaş Fərziyevin, Cəlal Ağayevin, Tural Əhmədovun, Tarzən Həşimov, Ədülfəz Rəhmətovun şəhidliyinin 2-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilmiş, şəhidlərin xatirəsi yad edilmiş, məzarları ziyarət olunmuş, abidələrin, bulaq-komplekslərin önünə çiçək dəstələri düzülmüş, nitqlər söylənmiş, dualar oxunmuşdur.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov başda olmaqla rayonun vəzifəli şəxsləri, ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər bütün anım mərasimlərində iştirak etmişlər. Şəhidlərin hər biri bizə doğma və əzizidir, onlar Azərbaycanın bütövlüyü uğrunda vuruşaraq qəhrəmanlıq göstərmiş, canlarını belə əsirgəməmişlər. Hər bir şəhid valideyni, şəhid ailəsi, qazi, Vətən müharibəsinin əlili dövlətin qayğısı ilə əhatə olunduğu kimi, bizim də ehtiramımıza, hörmət və məhəbbətimizə layiqdir. Bundan sonra da baş tacımız olan şəhidlərimizin ruhu sonsuz ehtiramla, izzətlə xatırlanacaq, yad ediləcək, heç zaman unudulmaycaq.

**"Lerik" qəzeti**

# NÖVBƏTİ SƏYYAR - QƏBUL NURAVUD KƏNDİNDƏ KEÇİRİLİB



**Lerik Rayon İcra Hakimiyyətinin başçısının 2022-ci ilin noyabr ayında yerlərdə keçirəcəyi səyyar qəbullara dair qrafikə uyğun olaraq RİH başçısı Əkbər Abbasov Nuravud kəndində vətəndaşlarla səyyar görüş-qəbul keçirib.**

Səyyargörüş-qəbulda rayon icra hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların rəhbərləri iştirak ediblər.

Görüşdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov vətəndaşları salamlayaraq bu günlərdə böyük qürur hissi ilə qeyd edilən bayramlar, Zəfər Günü və Dövlət Bayrağı Günü münasibəti ilə onları təbrik edib. Bildirib ki, cənab Prezidentin tapşırığına əsasən yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbullarda əsas məqsəd yerlərdəki mövcud vəziyyəti sakinlərin dilindən öyrənərək həlli mümkün olan məsələləri yerində həll etmək, ehtiyac olduğu halda aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırmaqdır.

Qəbulda rayon icra hakimiyyəti başçısının Nuravud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi çıxış edərək Nuravud kənd inzibati ərazi dairəsinə daxil oluna kəndlərdə görülmüş işlər barədə məlumat verib.

Səyyar görüş-qəbulda vətəndaşların səsləndirdikləri problemlər ayrı-ayrılıqda dinlənilib, problemlərin və onların həlli yollarının araşdırılması üçün görüləcək tədbirlər qeyd olunub və müvafiq qurumlara tapşırıqlar verilib.



Nuravud, Vizəzəmin, Kələxan və Qosmalıan kəndlərində keçirilən səyyar görüş-qəbullarda vətəndaşların şikayətlərinə baxılmış, təklifləri dinlənilmiş, lazimi tapşırıqlar verilmişdir.

# ŞƏHİD ƏLİQİSMƏT YAQUBLU VƏ ELQAŞ ƏLİYEVİN XATİRƏSİ ANILIB

**İllər ötsə də şəhidlər heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada salınır, xatirələrinə dərin ehtiram bəslənilir.**

Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda canından keçən igid oğullarımızdan "Azərbaycan Bayrağı" ordenli, Xüsusi Təyinatlı Qüvvələrin zabiti Yaqublu Əliqismət Mükafat oğlunun və müddətdən artıq xidmət edən hərbi qulluqçu Əliyev Elqaş Barat oğlunun əziz xatirəsi şəhidlik zirvəsinə ucalmasının ikinci ildönümündə anılıb.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələri ilə birlikdə Vətən müharibəsi şəhidləri, rayonun Kələxan kəndindəƏliqismət Yaqublunun və Brkandul kəndində Elqaş Əliyevin şəhadətə qovuşmasının ikinci ildönümü ilə əlaqədar məzarları ziyarət olunub, üzərlərinə gül dəstələri düzərək əziz xatirələri ehtiramla yad edilib.




Eyni zamanda torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan Brkandul kəndində Həsənov Zaid Şahverdioğlunun və Nəciyev Ənvər Xosaxan oğlunun məzarları ziyarət olunub, üzərlərinə gül dəstələri düzərək xatirələri yad edilib.

Rayon icra hakimiyyətinin başçısı Ə.Abbasov mərasimlərdə iştirak edən şəhid ailə üzvləri ilə görüşüb, onlarla səmimi söhbət edib, onların qayğı və problemləri ilə maraqlanıb.

# DOĞUM GÜNÜNDƏ BULAQ-KOMPLEKSİN AÇILIŞI OLDU






**Doğulduğu Vov kəndində Vətən müharibəsinin şəhidi Hüseynov Samir Əlizadə oğlunun adının əbədiləşdirilməsi məqsədi ilə bulaq-kompleksi inşa edilib. Kompleksin açılışı şəhidin doğum gününə təsadüf edib. Əvvəlcə Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri, qazilər, müharibə veteranları, kənd sakinləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Vov kənd qəbiristanlığında Samir Hüseynovun və digər şəhidlərin məzarları ziyarət olunub, qəbirüstü abidələri önünə gül dəstələri qoyuldu.**

Bulaq kompleksinin önündə davam etdirilən mərasimdə torpaqlarımızın işğaldan azad olunması uğrunda həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasov və şəhidin atası Əlizadə Hüseynov tərəfindən bulaq kompleksin üzərindən örtük götürülüb və önündə gül-çiçək dəstələri qoyulub.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov şəhid ailələrini və kənd sakinlərini salamlayıb və bulaq kompleksinin tikintisində dəstək göstərən və zəhməti olan hər kəsə minnətdarlığını bildirib.

Sonra rayon rəhbəri 2020-ci ilin sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsindən, Azərbaycan Ordusunun qazandığı şanlı Qələbədən, şəhidlərin gənclərə nümunə olan qısa, lakin şərəfli ömür yolundan danışıb.

Şəhid atası Hüseynov Əlizadə çıxış edərək şəhid ailələrinə, qazilərə göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlığını ifadə edib.



# BULAQ-KOMPLEKS TİKİLİB

**Hovil kəndində Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış şəhid İbrahimov İmaməli Elman oğlunun xatirəsinə inşa edilmiş bulaq kompleksinin açılışına həsr olunmuş tədbir keçirilib.**



Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov və şəhidin babası Dadaş İbrahimov tərəfindən bulaq kompleksinin üzərindən örtük götürülüb və önündə gül-çiçək dəstələri düzülüb.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov şəhid ailələrini və kənd sakinlərini salamlayıb və abidə-kompleksinin tikintisində dəstək göstərən hər kəsə minnətdarlığını ifadə edib. Bildirib ki, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş vətən övladlarının xatirəsi daim əziz tutulur, onların adının əbədiləşdirilməsi üçün dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçirilir və şəhid ailələri hər zaman diqqət mərkəzində saxlanılır. İmaməli İbrahimov kimi igidlər heç zaman unudulmur, adları əbədiləşdirilir.

Şəhidin babası Dadaş İbrahimov çıxış edərək şəhid ailələrinə, qazilərə göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlığını ifadə edib.

Qılqılov kənd ümumi orta məktəbinin şagirdlərinin ifasında şəhidlərə həsr olunmuş kompozisiya səsləndirilib.

Eyni zamanda tədbir iştirakçıları kənd qəbiristanlığında şəhidin məzarını ziyarət edib, üzərinə gül-çikək dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Sonra tədbir Hovil kəndində şəhid İmaməli İbrahimovun xatirəsinə inşa edilmiş mərasim evində ehsan süfrəsi ilə davam etdirilib.

# "QARABAĞ" ORDENLİ SƏFƏROV ELVİN RAMİZ OĞLUNUN XATİRƏSİ YAD EDİLİB

**Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş "Qarabağ" ordenli Səfərov Elvin Ramiz oğlunun şəhadətə ucaldığı gündən iki il ötür.**




Şəhidin anım mərasimində Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri və kənd sakinlərinin iştirakı ilə Sorukənd qəbiristanlığında Elvin Səfərovun və digər şəhidlərin məzarları ziyarət olunub, qəbirüstü abidələri önünə gül dəstələri düzüb.

Sonra rayon icra hakimiyyətinin başçısı Soru kəndində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə inşa edilmiş bulaq-abidə kompleksini ziyarət edib, önünə gül dəstələri düzüb.

Qeyd edək ki, şəhid Elvin Səfərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocəvəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

# FƏXRİ FƏRMANLAR TƏQDİM EDİLDİ






**Dövlət qulluğunda uzunmüddətli səmərəli və qüsursuz əmək fəaliyyətinə görə və anadan olmasının 65 illik yubileyi münasibətilə Lerik Rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif olunmuş Lerik RİH başçısı aparatının baş mütəxəssis - sürücüsü İbrahimov Əjdər Ağaverdi oğluna və 1 Noyabr - Kənd Təsərrüfatı İşçiləri Günü və anadan olmasının 70 illiyi münasibətilə Rvarud kənd baytarlıq məntəqəsinin müdiri Həsənov Rufulla Fayaz oğluna fəxri fərmanlar təqdim edilmişdir.**

Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin, Lerik Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov fəxri fərmanları Əjdər İbrahimova və Rufulla Həsənova təqdim edərək, onları təbrik etdi. Əjdər İbrahimovun və Rufulla Həsənovun uzunmüddətli səmərəli fəaliyyət göstərdiklərini, onların keçdikləri həyat yolunun gənclərə nümunə olduğunu bildirdi və onlara xoş arzularını çatdırdı.

# "AVROPA İTTİFAQININ AZƏRBAYCANIN LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNA DƏSTƏYİ" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ KEÇİRİLİB



**25 noyabr 2022-ci il tarixdə "Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonuna dəstəyi" layihəsi çərçivəsində Lerik Rayon İcra Hakimiyyətində görüş keçirilib.**

Görüşdə rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov, rayon icra hakimiyyəti başçısı aparatının məsul şəxsləri, aidiyyəti idarə, müəssisə rəhbərləri, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məsul işçisi Cavid Qədimov, İqtisadiyyat Nazirliyinin Lənkəran regional bölməsinin müdiri Çingiz Məmmədov, layihənin koordinatoru Alma Bayrak, layihənin ekspertləri Vitold Sartorius və Əhliman Qasımov iştirak ediblər.

Görüş zamanı layihənin icrası ilə bağlı rayonun inkişaf planının hazırlanması üzrə keçiriləcək seminarlar barədə fikir mübadiləsi aparılıb, bu məqsədlə keçirilməsi planlaşdırılan təlimlərdə iştirak edəcək təşkilatların adları və iştirakçıların sayı müəyyənləşdirilib.



# "ZƏFƏR GÜNÜ" MÖVZUSUNDA AÇIQ DƏRS KEÇİRİLİB



Hamarmeşə kənd tam orta məktəbində 10-cu sinifinin tarix müəllimi Namiq Hümbətov "Zəfər Günü" mövzusundaaçıq dərs keçirib.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov açıq dərsdə iştirak edib, dərsdə fəallıq göstərən şagirdlərə tövsiyyələrini verib.



rin salınması Lerik Qəbələ İcra Nümayəndəliyinin sifarişi ilə həyata keçirilir.

Elmar Qarayev, Nizami küçələrinin yenidən asfaltlanmasına hazırlıq görülür. Beş küçədə işıqlandırma sisteminin qurulmasına başlanacaqdır. Bir neçə digər küçədə abadlıq işləri görüləcəkdir. Bir sözlə, Lerik şəhəri əvvəlkindən daha abad, yaraşıqlı və gözəl olacaqdır.

## Lerik şəhərinin küçələrində yenidənqurma

Lerik qəsəbəsi şəhid statusu aldıqdan sonra burada tikinti-quruculuq işləri geniş vüsət almışdır. Yeni görkəmdə sosialyönümlü obyektlər tikilir, fərdi yaşayış evləri, ticarət şəbəkələri görkəmini dəyişir. Küçələr və meydanlar göz oxşayır, yaşıllıqlar genişlənir, işıqlandırma sistemi şəhərin gecəsinə nur ələyir. Artıq bir neçə gündür ki, Lerik şəhəri tikinti meydançasını xatırladır. İlk növbədə Heydər Əliyev meydanı təzədən qurulur, burada yol kənarlarında genişləndirmə işləri həyata keçirilir, köhnə bardyorlar və döşəmə materialları daha keyfiyyətlisi ilə əvəz olunur, qazonlar yenilənir. Bu meydan, H.Aslanov və N.Nərimanov küçələrində yeni səkilə-



**"Lerik" qəzeti**



**MURADƏLİ HÜSEYNOV,**
**Bradi kəndi**

### XƏBƏRİN VARMI?

***Xain ermənləri qucağına alıb əzizləyən Makron Azərbaycanı hədəfə alıb.***

Cahanda hamıya bəllidir adın,
Həmişə xalqım tək qaraladın.
Erməni yalanın sən doğru sandın,
Ədalətsiz olmaqdan xəbərin varmı?

Yalana doğrudan geydirmə sən don,
Haylara söykənmə, Makron!
Qayıt ədalətə, yalana qoy son,
Haqqı tapdalama, düz danış, Makron!

Gəlmə ermənіyə sən yerli dedin,
Haqqı tapdaladın, doğrunu aydın.
Günahsız xalqımı günahkar bildin,
Əyriyə düz deyib, utanmırsanmı?

Niyə haqqı əzib, yolu azırsan,
Yalanı tarixə doğru yazırsan.
Xalqımın adına ləkə yaxırsan,
Yapdığın yalandan utanmırsanmı?

Ürəyi hər xalqa güzgü tək təmiz,
Nahaqdan danlanan, töhmətlənən biz.
Niyə qulağına çatmır səsimiz,
Heç qara yaxmaqdan utanmırsanmı?

Qocalar həmişə yaddaşımızdır,
O qarda məhv olan soydaşımızdır.
Qayada hər bir daş başdaşımızdır,
O dilsiz daşlardan utanmırsanmı?

Haylar nə bacardı, onu etdilər.
Bakıda, Qubada qırğın etdilər.
Gəncəni, Tərtəri viran etdilər,
Tökülən qanlardan utanmırsanmı?

Yurdum işğal oldu, talan edildi.
Ağdamım kökündən tar-mar edildi.
Qoca da, körpə də qəltan edildi,
Günahsız qanlardan utanmırsanmı?

Varaqla tarixi, insafın olsun,
Düz - doğru faktlara inamın olsun.
Yalan danışanın dili lal olsun,
Ədirnə sülhündən xəbərin varmı?

Əyrini, doğrunu tarix arayır,
Türkmənçay sülhünü bir sənəd sayır.
O xain hayları sən nə sayırsan,
Türkmənçay sülhündən xəbərin varmı?

Bütün olanları yaxşı anırsan,
İşğalçı hayları yazıq sayırsan.
Hayların günahın bizə yaxırsan,
Yaxdığın günahdan xəbərin varmı?!

# ELAN

**Yeni Azərbaycan Partiyası tərəfindən Kazımov Əmənulla Eyni oğluna 2000-ci ildə verilmiş V 147575 nömrəli üzvlük bileti itdiyi üçün etibarsız sayılır.**

**Yeni Azərbaycan Partiyası tərəfindən Qənbərov Novruz Şahbaz oğluna 2000-ci ildə verilmiş V 153683 nömrəli üzvlük bileti itdiyi üçün etibarsız sayılır.**

# ZƏFƏRİN MÜBARƏK, VƏTƏN!

**Heydər Əliyev Mərkəzində ŞHXÇDX Lerik rayon şöbəsinin təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş toplantı keçirilmişdir. Dövlət Himni dinlənilmiş, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş igidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.**



ŞHXÇDX Lerik rayon şöbəsinin rəisi Arif Həsənov böyük ruh yüksəkliyi ilə dedi ki, Azərbaycan Prezidenti İlham Əliyevin əvəzsiz liderlik, hərbi sərkərdəlik keyfiyyətləri Vətən müharibəsində bir daha özünü göstərdi. Müharibədə xalqımız Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi prinsipial, çevik diplomatiyasının, qətiyyətinin, uzaqgörənliyinin şahidi olduq. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın ötən illərdə əldə etdikləri nailiyyətlər və beynəlxalq aləmdə qazandığı böyük nüfuz, Xalq-İqtidar-Dövlət birliyi Vətən müharibəsini şərtləndirən vacib amillər oldu. Prezidentin ordu quruculuğuna xüsusi diqqət yetirməsi nəticəsində müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrimiz formalaşmışdır ki, bu da erməni faşizmi üzərində Qələbəmizlə nəticələndi. 44 gün ərzində düşmənin darmadağın edilməsi hayların məkrli planlarını boşa çıxartdı. Ordusunun darmadağın edilməsi ilə nəticələndi, xalqımızın milli qürur hissini özünə qaytardı. Bu gün biz həmin qüruru, Qələbəni böyük iftixar hissi ilə qeyd edirik.

Şəhid kapitan Əbülfəz Rəhmətovun atası Hüseynverdi müəllim çıxış edənlərin fikrini ifadə edərək dedi:

Azərbaycan əsgəri peşəkarlığı, nizam-intizamı, cəsurluğu, misilsiz vətənpərvərliyi ilə dünyanı heyran etdi, işğal altındakı torpaqlarımızı azad qoydu, bizə qələbə sevinci bəxş etdi, işğal altındakı torpaqlarımızı bizə qaytardı. Torpaqlarımızı azad etməklə şəhidlərimizin ruhunu sevindirdi. Onlar Vətənin bütövlüyü naminə canlarını fəda etdilər, xalq üçün qurba getdilər. İllər, qərinələr ötüb keçsə də şəhidlərimizin misilsiz hünəri unudulmayacaq.

Bayram tədbirində şəhid anaları Şərafət xanım, Sevinc xanım, Ağsaqqallar Şurasının sədri Elxan Qəmbərov, qazi Elxan Yunuslu, Azər Səmədov çıxış edərək, Qələbə bayramı münasibətilə xalqımızı təbrik etdilər, Ordumuzdan rəşadətindən, ölkə başçısının qətiyyətindən, xalqımızın yenilməzliyindən, dövlətimizn şəhid ailələrinə, qazilərə, əlillərə göstərdiyi diqqət və qayğıdan danışdılar.

**Sonda "Vətən müharibəsi iştirakçısı" medallarının təqdimatı oldu.**

# ŞAİR FİRUDİN AĞAZADƏYƏ DEMƏK İSTƏDİKLƏRİM

Bu yazıya İdris Şükürlünün qeydləri ilə başlamaq istəyirəm. O, fədakar ziyalı, tanınmış şair-tərcüməçi Firudin Ağazadə barədə yazır: "Mən Firudin Ağazadəni çoxdan tanıyıram. "İslamın Səsi" qəzetində işləyəndən də qabaq. Sonralar "AzərTac"da hərdənbir görüşərdik. Əgər buna görüş demək mümkünsə. Tərcüməçlik edirdi. Adi tərcüməçi yox a! O, şeirlər, tərcümələr, esse və analitik məqalələr yazanda, "Azərbaycan təbiəti" jurnalında işləyəndə ali məktəbdə dərs deyəndə, "Azərbaycan ədəbiyyatında mifoloji obrazlar" adlı elmi iş üzərində işləyəndə, əsl yaradıcı qələm sahibi idi, bəzi tərcüməçilərlə müqayisədə ustad idi. İş otağı darısqal olsa da, açıq və səmimi söhbət etməyə nəfəsimiz çatırdı. Onun ürək qapısı aşıq olsa da, iş otağı qapalı məkan idi... Elə vaxt olub ki, özü ilə evdən gətirdiyi təamı birlikdə yemişik.

Nəhayət, növbəti görüşümüzdə çoxdankı istəyimi ona dedim:

**- Qardaş, şeirlərini, kitablarının oxumuşam, az-çox bələdəm sənə. Olarmı səninlə bahəm bir polemik yazı hazırlayaq?**

Biz müsahibə hazırlamaq istəsək də, Firudin Ağazadə barədə oxunaqı bir esse alınmışdı. Həmin yazı "Lerik" qəzetində geniş formatda çap olundu, oxucular arasında geniş rezonans doğurdu. İndi budur, həmin yazını yenidən Firudin Ağazadənin "Qanun" nəşriyyatında nəşr etdirdiyi "Mən həmişə tələsdim" adlı 4-cü kitabında ilk yazı yerində görəndə qanadlandım, şairə hörmətim daha da artdı. Düşündüm ki, gərək bir-birimizin qədir-qiymətinin biləк, yoxsa gec olar... "Şairlər qəribə olmasa" müsahibə-essesində şair Məmməd Aslana istinadən yazılmış qeydləri oxucuya təqdim etmək yerinə düşər. Şair Məmməd Aslan bu barədə yazır: "Ömrünün xoş çağları idi (yəni, Aşıq Şəmşirin). Növbəti görüşümüzdə xoş-beşdən sonra:

- Ay oğul, - dedi. Bu Firudin Ağazadə kimdir?
- Eşitməmişəm, Şəmşir əmi.
- Nə danışırsan?! Sən eşitməyəndə, tanımayanda, bəs kim tanıyacaq?!"

"Bu Firudin kimdi, nəçidi?" - deyə soruşmurdum. Çünki aşıq belə sorğu ilə ancaq qələm əhli olanları xəbər alırdı. Sonra da başladı eşitdiyim bu adamdan bir gəraylını məftunluqla əzbər deməyə:

**Nə halətdi, nə qəmdi bu?**
**Can odlandı, nədəndi bu?**
**Telli sazda nə dəmdi bu? -**
**Çəkib zilə, oxay, oxay!**

- Ay oğul, çox gözəl deyib, kəm-kəsirsiz yaradıb. Amma bu "oxay!" sözünü bizdə deyildiyi kimi "oxxay!" yaxud "oxqay!" şəklində söyləsək, lap ürəkdən tikan çıxarar:

**Alışdımı beçə pərdə,**
**Hal biləni salar dərdə.**
**"Baş Sarıtel" dinən yerdə**
**Döndüm telə, oxay, oxay!**



**"Ruhani"dən ilham istə,**
**"Divani"dən qiyam istə,**
**"El havası" dünyam üstə**
**Gur şəlalə, oxay, oxay!**

**... Bəmin yanar, zilin yanar,**
**Kərəm kimi külün yanar.**
**Dilnən desən dilin yanar,**
**De saz ilə, oxay, oxay!**

- Ayrı bəndləri də var, onlar da gözəldi! Amma möhürbəndi yoxdur. Əvvəl yazı-pozu sən deyən inkişaf etməmişdi, söz sahibinin adını bu təxəllüs bəndlər xalqın yaddaşında saxlayırdı. İndi mətbuat, dəftər-kitab, savad hər kəsin öz malını öz adına yazır. Genə deyirəm, olsa yaxşıydı, qoşmanı təxəllüssüz görənəd elə bilirəm başı çiynində olmayan adam görürəm.

Nə yazıq ki, aşığın bu müəllifi tanımaq marağına işıq tuta bilmədim. Bu maraqla, şairlə çox sonralar, elə bu gəraylının sorağınca gəzib tanış oldum".

Həmişə tələsən şairin kitabında Şairlər qəribə olmasa, "esselər", "məqalələr", "tərcümələr", "statuslar" yer almışdır. Hər birinin də öz dəyəri, oxucunu düşündürən məqamlar var. Yəqin ki, arif oxucu kitabı oxuyub bunu duyacaq.

Kitabda çap olunmuş müxtəlif janrlı yazılarda Firudinin xalq şairi Məmməd Araza böyük sevgisi duyulur. O, təvazökarlıqla yazır: "Şair ola bilmədim, alimliyə nə hacət. Mənim aləmimdə bir Məmməd Araz min alimə dəyər. Amma, Məmməd Araz ha!"



Məmməd Arazın təvəllüd gününə kiçik bir esse yazmışdostum şairə belə qiymət verir: "Sabah Məmməd Arazın doğum günüdür - 14 oktyabr.

Necə ki, fonetikasının öz məxrəci var, Məmməd Araz poeziyasının da eynən o cür - öz məxrəci, öz artiklyasiyası var. Bu məxrəcdə şeir yazmaq hər kəsin işi deyil.

... Yeri, yeri, xışım yeri, Yenir dağdan qışım, yeri. Yazmaqdan hey yorulmadım - Kağızımdı bu şum yeri - bu sözləri min yaşlı bir ixtiyar deyə bilərdi. 87 nədir ki? ... Bu gün 1000 yaşı var Məmməd Arazın..."

Şair Firudin Ağazadənin kitabında yer almış "Paulo Koelyo, Şahbaz Xuduoğlu, Üç nöqtə adlı essede sözün də bəzən yazıçıların əlində gücsüz olduğunu göstərir və o, fikrini belə xarakterizə edir: "Üç nöqtə bitməyən, bitə bilməyən, sonsuz və intəhasız duyğularımızdır... Hiss edilən, fəqət heç cür yazıla bilməyəndir... Söz tapmadığımız zaman üç nöqtə qoyuruq... Vallah, adam söz tapmır həyatın suallarına... Söz tapmırıq, üç nöqtə qoyuruq... Üç nöqtə susqunluğumuzdur - həyatın müşküləri qarşısında".

Onsuz da Firudin Ağazadənini kitabını bütövlükdə təhlil etmək bizim işimiz deyil, tədqiqat mövzusudur. Mən kitabın sonunda çap edilmiş 8 səhifəlik foto albома heyranlıqla baxdım. Fotokameranın yaddaşı hər şəkildə həyatın bir anını əks etdirir. Buyurun, siz də tanış olun:

"Avropanın paytaxtı Amsterdam şəhərində, Qustav Məmməd Arazın abidəsini ziyarət edərkən".



**Səadət Sultan**
**Yazıçı-publisist**



**İLTİMAS SƏMİMİ**
***Azərbaycan Yazıçılar Birliyi üzvü***
***Prezident mükafatçısı***

### VƏTƏN EŞQİNDƏN

*İ Qarabağ müharibəsinin şəhidi*
*Ənvər Xosaxan oğlu Nəciyevin*
*əziz xatirəsinə böyük ehtiramla*

Torpağın qoynunda rahat ol sən də,
Qoy ruhun nigaran qalmasın, şəhid.
Səni xatırlayar gələn nəsillər,
Qalmadı düşməndə qisasın, şəhid

Sən də bu torpağın bir ər övladı,
Silaha sarılıb vuruşdun hər an.
Vətən keşiyində bir əsgər kimi,
Səni qorxutmadı nə ölüm, nə qan.

Bu yol dönməzlərin qeyrət yoldur,
Çəkir ərənləri əbədiyyətə.
Fəqət Ənvər kimi igid oğullar,
And içir ürəkdən ulu niyyətə.

Şəhidim, qisasın qalmadı yerdə,
Niyyəti Qarabağ, arzusu zəfər.
Bizim bu vətənin qəhrəmanları,
Bu haqq savaşında göstəridi hünər.

Necə Ənvərlərin intiqamını,
Aldı ər oğullar sevindi vətən.
Bitdi otuz illik torpaq həsrəti,
İgidlər güc aldı vətən eşqindən.

Torpağın qoynunda rahat ol, sən də,
Qoy ruhun nigaran qalmasın, şəhid.
Səni xatırlayar gələn nəsillər,
Qalmadı düşməndə qisasın, şəhid

### VƏTƏNİN, TORPAĞIN QƏHRƏMAN ÖVLADISAN

*Şəhid Amil Novruz oğlu Əliyevin*
*əziz xatirəsinə*

Bəlli olan amalı yurd eşqiylə yoğrulan,
Adı dillərə əzbər anadan ər doğulan.
Düşmənin güllləsinə sinəsi sipər olan,
Sən vətən torpağının qəhrəman övladısan.

Tarixə nəzər salıb özünə bir yol seçir,
Ər oğullar ürəkdən məsləkinə and içir.
Əyilməzlik qandadır nəsildən, soydan keçir,
Sən vətən torpağının qəhrəman övladısan.

Şəhadətə ucalmaq igidlərə iftixar,
Yaddaşlarda əbədi şəhid bir Amil də var.
İllər ötüb keçəcək nəsillər xatırlayar.
Sən vətən torpağının qəhrəman övladısan.

Ah çəkib ağlamazmı fəqət şəhid anası?
Çiliklənib qırılıb neçə könül aynası.
O ulu yaradandan bu da bir alın yazı,
Sən vətən torpağının qəhrəman övladısan.

Qırıldı ömür bağı qəhrəman Amilin də,
Qaldı neçə arzusu ürəyində, qəlbində.
Düşmənə sonsuz idi kinin də, nifrətin də,
Sən vətən torpağının qəhrəman övladısan.

**20.11.2022.**

### TARİX YAZANLARA O HAQQ YOLUDUR

*İİ Qarabağ müharibəsinin şəhidi*
*Ceyhun Akif oğlu Səfərovun əziz xatirəsinə*

Qayalar hönkürdü, daşlar ağladı,
Millətə dağ çəkdi vətən həsrəti.
Son ümid, son güman silaha qaldı,
Düşmən işğalına dağlar dözmədi.

Sinəsin düşmənə sipər eyləyib,
Şəhid Ceyhunum da göstərib hünər.
Daim vətən deyib, vətən söyləyib,
Keçib döyüşlərdən o igid, o ər.

Yurd - vətən sevgisi əbədi bir yol,
Məsləkdən, amaldan, qeyrətdən keçir.
Öz saf məramından dönməyən oğul,
Vətən torpağına fəqət and içir.

Hünəri alınmaz bir qala kimi,
Güllə yağışında qorxu bilməyən.
Gələcək nəsilə örnək deyilmi?
Bu ana torpağa "qurbanam" deyən.

Sevgisi, ehtiramı adı tək uca,
O ana vətənin igid oğludur.
Ruhu bu torpağa nur saça-saça,
Tarix yazanlara o haqq yoludur.

**22.11.2022**



Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
Redaktor: İdris ŞÜKÜRLÜ

Redaksiyanın ünvanı: Lerik şəhəri, Həzi Aslanov küç. - 1.
Tel.: (070) 200-21-54

Yazılardakı faktlara və ifadələrə görə müəlliflər məsuliyyət daşıyırlar. Əlyazmalar geri qaytarılmır.
Sifariş: 190 Tiraj: 400

Lisenziya № V 280
VÖEN 6300050071
Redaksiyanın "Kapital" bankın Lerik filialındakı hesab nömrəsi:
AZ05AİİB33080019447400220174

Kod: 200747
İndeks: 90935

Qəzet "Son Dakika" MMC mətbəəsində çap edilmişdir.